# Sükutlara nəfəs olub...

(Əvvəli 5-ci səhifədə).

o dünyasında cənnətə qovuşmaqla tarixə iz buraxar. Onun arzularını onu sevənlər məsuliyyət hiss edərək həyata keçirməyə başlar. Beləliklə də, itib - ölməzlik, ölüb - itməzlik yaranar! Axı şəhidlər insan həyatının əbədiyaşarlıq qazananlarıdır!



Aqşin Ənvərli ağ xalatının bəmbəyaz işığında yaşayır... O işıq isə ölümlərə kölgə saldı, həyat işığı verdi, nəfəs verdi təkrar-təkrar insanlara... Həyat verdiyi insanların nəfəsində yaşayır o! Gülüşündə, sevincində, arzularında, sevgilərində, kədərli anlarında tam həyatında yaşayır Aqşin! Xatirələrə dönüb yaşamır, xatırlanıb xatirələrə dönür və hər kəsin qan yaddaşında təzahür edir - baxışlarda, duyğu- düşüncələrdə!..

İlin bütün fəsilləri ağ xalatın sehirlədiyi insanlar üçün eyni... Axı insan ömrü hər fəslin gözəlliyini özünəməxsus yaşar. Həkimlər isə hər fəslin deyil, hər anın dəyərini insan ömrü ilə ölçər, sağlamlığın keşiyinin müsəlləh əsgəri olarlar!

Aqşin isə... Vətənin ona ehtiyac duyduğu bir zamanda həm də Vətənin müsəlləh əsgəri oldu... Həm düşmənə aman verməyəcək odlu silahla, həm də döyüşçü oğullara ölümü yaxın buraxmamaq üçün həkim bacarığı, peşə mükəmməlliyi ilə sağlamlıq vasitələrini əldə əsas tutaraq döyüşdü. İllərin arzusu idi həkim olmaq. Oldu! İllərin arzusu idi torpaqlarımızın azadlığı; xalqının hər bir övladının öz ana məkanında - Vətəninin başladığı doğulduğu yurdda öz ocağının ətrafına yığışaraq yaşaması... Azad və bütöv Vətənimizin zəfər və qələbə qürurlu vətəndaşı olaraq yaşaması... Arzularına pillə-pillə çatmaq hər kəsin istəyi - Aqşinin də!

Atasının rəssamlıq istedadını "alan" Aqşin həyatın hər anını, təbiətin gözəlliklərini fırçayla gerçək dünyaya çevirərdi... Axı o, həm də Qəbələ Rayon İncəsənət Məktəbinin müdavimi idi... Fırçanın dili ilə də insanları danışdırmağı bacarırdı Aqşin! Ta uşaqlıqdan düşüncəli hərəkətləri, fərqli xarakteri ilə onu tanıyan kiçikdən böyüyə hər kəsin rəğbətini qazanmışdı. Məhz ona görə də onun adı çəkilərkən təkcə rəsm istedadıları, bu məktəbin müdavimləri deyil, onu tanıyan və tanıyanların da həmsöhbətləri xoş xatirələrlə xatırlayır. 44 günlük müharibə elə bir tarix yazdı ki, insanlarda sabaha o günlərin "çiynindən baxmaq" düşüncələri formalaşdı. Axı vətən oğulları 30 illik bir acını, sıxıntını, günün tərzi deyil, xatirə tək yaşanılacaq, acı dolu xatırlanacaq bir tarixə, xatirələrə çevirdilər. Qələbə işığı, Zəfər tarixi yazdılar. Və bu tarixi yazan el igidlərinin arasında da müxtəlif rütbəli - generalından, Milli Qəhrəmanından sadə əsgərimizədək hər kəs mənəvi cəhətdən zəngin bir vətəndaşlıq əzmi göstərdilər, ölümü belə coşqu ilə qarşıladılar, Vətənin oğul çağrışını məsuliyyətlə doğrultdular. Ağ xalatının işığıyla eloğlumuz Aqşin Ənvərli də onların arasında idi. Sırf insanlıq duyğuları ilə yaşayan, onları yaşadan, özünə xas bütün arzularını Vətənin azadlığına qurban verən Aqşinimiz!

Görəsən ölümü döyüşçü yoldaşından bac alan Aqşin, damla-damla qanının son qramınadək bitməsini gözləyərkən üzündəki xoş ifadə ata-ananı, nakam sevgini və çiliklənəcək arzularını düşündüyündənmi simanda bərqərar olmuşdu?!. Sənin cəbhə həyatının qısa zaman tarixinin zəngin xronologiyasıdır həyata qaytardığın insan ömürləri!.. Bax ona görə də, sənə həyat verən ata-anan yüzlərlə insanı yenidən həyata qaytardığın üçün bu günün qürur dağı sayılırlar. Nə qədər qürur dağı, əzəmət və dözüm təcəssümü olsalar belə, Sənin məzarının başında sükutlara nəfəs, buludlara qanad, gecələrə fənər olub səni axtarırlar... Və göz yaşlarını qəlbinə axıtsalar belə simalarına qonan qəm kölgəsi bir qızartı, şişkinlik ilə xırdaca yağan yağıştək nəm saxlayar üzlərini... Bu acı nəmlik qanlarının ağlantısıdır!

# Eyni titullular

(Əvvəli 5-ci səhifədə).

mühafizəçi olar şəhid doğmaları, ələlxüsus analar, atalar...

Gözlər acı gözyaşlarından şişmanlamış. Siması bu acılıqdan qızarmış, əlləri titrək, ayaqları daşlaşmış. Duyğu və düşüncələrində həqiqi bir gənc ömrünün həyat manifestini canlandırar onlar. Gözlərində daimi məskən salar "həyat yağışları"! Təbiətə can verən yağış sözü öz adından utanar-"Gözlərindən acı yaş yağış kimi axardı"-kəlmələrinə görə.

**Şəhid atası**

Qürurlu bir varlığı əks etdirər ata adı ta dünyanın əzəlindən. Arxa-dayaq, həyat məktəbinin ən ulu varlığı, ən güclü "silahdaşı", ən savadlı müəllimi, ən sərt, ən mülayim, ən güclü, qayğıkeş, ən aqil şəxsi! Ata-ümid, ata-inanc, ata hər evin komandanı, ən ali varlığı! Ata ocaq çatan, yuva quran, ana ocaq yandıran, yuvanı qoruyan bir məxluq. Ata güvəncli bir zirvə!.. Bütün bunlar isə ataya ocaq istisi və övlad sevgisi bəxş edər. Övlad sevgisi isə atalara qürrə verər, yaşamağa inam verər, yaşamağa ümid verər-şəcərələr ata-ana "qolu" ilə şaxələnər və hər nəslin öz ata xətti olar, həyat öz davamiyyətini belə nizamlayar və əks etdirər. Bir sözlə, ata adı müqəddəsdir və bu müqəddəsliyi də ona övlad bəxş edər. Əlbəttə həyatı duyan və vicdanının diktəsi ilə həyat yaşayan bir övlad.

Bu həyatın hər gününü əsl insan xislətli övladlar rəngarəngləşdirər. Bəziləri ata-anaya qürur mənbəyi olar, bəziləri isə ətrafındaki pisliklərə uyaraq valideyn zəhmətini yerə vurar. Qürurlu, qədirbilən və qiymətləndirici övladlar ailənin baş ucalığı olarlar.

Ən böyük sınaq vətən uğrunda; xalqın mənafeyi uğrunda gedən mübarizələrdir. Bu mübarizə məktəbinin müdavimidir. İgid oğullar, mərd övladlar! O övladlar ki, öz ailə sevgisinin, xoşbəxtliyinin məhz vətəndən başlamasını dərk edərək yaşayır, onlar qəhrəman əqidəli olurlar. Bu isə tarixin qəhrəmanlıq xronologiyasının əsasıdır. Tarix daim təkrarlanır, lakin xalqımızın tarixinin təzədən yazılması dövlətimizi dünya tarixinə, xronologiyasına qırmızı xətlə əks etdirdi. Bu tarixi yazanların adı isə seçilməsi xatirinə qara xətlə yazılsa da qızılı bir rənglə oxundu. Ölümün rəngi qara sayılsa da qəhrəmanlığın rəngi qızılı rəngdir; bu rəng əbədiyaşarlığın rəmzidir.

Şəhid atalarına heç diqqət etmisizmi?! Simalarında hər iki rəngin kölgəsi var. Şəhid atası!-ata adının ən uca titulu!

44 günlük müharibənin Qəbələ şəhidlərinin valideynləri göz önümüzdə. Onların ağrı-acısı qəlbimizdə. Onlar sağ ikən... yaşaması göz önündə... övladlarının xatirələrini qorumaq üçün yaşar onlar!..

Şəhid anaları deyən kimi general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun anası Səmayə xanım, Ümman Əmiraslanovun anası Fəzilə xanım, Əsəd Zeynallının anası Vəfa




xanım, şəhid atası dedikdə isə Aqşin Ənvərlinin atası Faiq qardaşımız, Xeyirbəy Səfərçinovun atası Cəlil qardaşımız simvolik halda gözlərimiz önündə canlanır.

Onların hər kəlməsinin arxasındaki göz yaşları qəlblərinə hər şəhidin adıyla axar, ürəkləri "Qan gölü"nə dönər.

Kişilər ağlamaz deyirlər... Ağlamamış mümkünmü? Şəhidlərdən danışarkən diqqət etdinizmi heç onlara?! Qəm kölgəsi məskən salmış simaları, səyriyən üz ifadəsi, gözlərindəki nəmlik kişilərin ağlayıb-ağlamamasından asılı olmayaraq üzlərindən oxunar! Həm də ağlar onlar... Qutuya sığmayan övladlarını bayraq kəfənli və silahdaşlarının çiynində gəldiyini görən ata ağlamazmı?!! Bəy otağı hazırladığı halda oğul balası "qutuda" vidalaşarsa öz otağıyla, bəyazlaşmış, buz kimi sifətindən öpərkən necə ağlamaz kişilər?!! Qəlbindəki çiliklənən arzuları tamamlanarmı?!. Oğul əvəzinə qara, buz kimi mərmər daşı öpən şəhid atası-dünyanın ən qürurlu və ali insanı-kişisi ağlamaya bilərmi?!

Kişilər ağlar! Nə qədər qüruruna dayanıq olsa belə!!! Allah bir daha "Şəhid atası" titulunu ataların adlarına qismət etməsin! Şəhidlik nə qədər müqəddəs bir ad olsa da, pafosla səsləndirilsə də, arxasındakı acı və ağrılar əvəzedilməzdir!

**Dərd birləşdirən toplum**

Bir-birini tanımazdı onlar... Nə qadınlar, nə kişilər. Heç birinin ağlına belə gəlməzdi ki, bir gün onlar doğmalaşacaq, hamısı bir ananın, atanın övladları kimi olacaqlar. Düşüncələri, arzuları, sağlamlıqları, həyata baxışları eyniləşəcək. Onları fərqləndirən cəhət isə aid olduğu xarakterik baxışlardır. Canlarının bir parçasını soyuq, mərmər daşla əvəz edən valideynlər... Övladlarının xoşladığı təamlardan, geyimlərdən, gəzintilərdən imtina edər onlar.

Əzizləri üçün olan toy məclislərində belə simalarındaki kədər bulud hiss olunar. Dərd ortağı onlar... oxşar talelilər.

**Şəhid qadını**

Şəhidlərin gənc ömür-gün yoldaşları! Boynu bükük bənövşə kimi gözləri həmişə qapıda, qulaqları səsdə... Hər qapı döyüntüsündə-kaş ki... nə olar, Allahım!... Möcüzə ola... deyə düşüncələrdə. Barışmaq istəməzlər bu ölümlə... Nişanlılar... Qalaq-qalaq arzu dolu gənclər... Onlar ömür yolunun ən acılı insanları... Dözəcək bu dərdə 2 il, 5-10 il...

Ancaq həyat davam edir deyə el qınağının üstünlük təşkil etməsinə rəğmən ailə quracaq... sevdiyi qəlbində... ailəsiylə yaşayacaq!

Şəhid övladları-Külək vıyıltısına səksənər onlar... Körpə yaşlarında ata qucağına qaçmalıykən məzarıstana qaçar, ata qollarında sevinirkən ata məzarına sarmaşarlar, gözlərinin yaşı yağış kimi axar... Bəzən də şəhid övladları göz yaşlarını qəlblərinə axıdaraq nitqi lal halda ata baxışları ilə danışarlar... Sonda isə demək istəsə də, istəməsə də ağlından bir nida cümləsi keçər:

**Vətən sağ olsun!**

Dərd ortağı onlar... Acıları bir, tale yazıları oxşar. Allahım, sən vətənin övladlarına bu acıları bir daha yaşatma! Onlar-torpağın dirəklərinə çevrilmiş şəhid əzizləri dözüm-səbrlə həyatlarına xoş sabahlarla davam etsinlər!

**BİBİXANIM.**

# Onlar Vətən uğrunda döyüşmüşlər




Bəhruz Abuşov 1983-cü il iyunun 18-də Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olub. 1989-2000-ci illərdə Nohurqışlaq kənd tam orta məktəbində təhsil alıb. 2000-2004-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali təhsil alıb.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin mayoru olan Bəhruz Abuşov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Hadrut qəsəbəsinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Bəhruz Abuşov noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunun Nohurqışlaq kəndində dəfn olunub.

Bəhruz Abuşov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

O, həmçinin "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur

Ailəli idi. 2 övladı yadigar qaldı.




***Təbriz Qasımov-Vətən müharibəsinin könüllü döyüşçüsü olmuş, zəfər gününə 2 gün qalmış-6 noyabrda Xocavənd döyüşləri zamanı şəhid olmuşdur.***

***Körpə qızı Fatimə onun yadigarıdır.***